# "AAC" MMC-NİN NARKOTİK MADDƏLƏR VƏ SPİRTLİ İÇKİLƏR SİYASƏTİ

**Təsdiq edirəm;**
**"AAC" MMC-nin Direktoru**
**Zahid Şahbazov**
**"30"Sentyabr" 2023-cü il**

Bu siyasət və onun prinsipləri, "AAC" MMC-nin ofisində, istehsalat binasında, anbarında çalışan və ya müxtəlif yığıncaqlarda, işgüzar görüşlərdə, sərgilərdə və s. şirkətin adından çıxış edən hər bir işçisinə, eləcə də şirkətə qonaq qismində gələn şəxslərə, şirkət üçün müqavilə əsasında xidmət göstərən hüquqi və ya fiziki şəxslərə aid edilir. Bu siyasətin əsas məqsədi, iş vaxtı işçilərin narkotik tərkibli maddələrin (eləcə də dərmanların) və spirtli içkilərin istifadəsinin və ya bu maddələrin təsiri altında olmaqla hər hansı fəaliyyətin həyata keçirilməsinin qarşısını almaqdır.

Hər bir işçi, eləcə də şirkətə qonaq qismində gələn şəxslər bu siyasətin prinsiplərinə əməl etməlidirlər. Əks halda şirkətin rəhbərliyi həmin işçilərin və ya şirkətə qonaq qismində gələn şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada cəzalandırılması (hətta işdən azad edilməsi, şirkətin ofis və binalarından kənarlaşdırılması) barədə qərar qəbul edə bilər. Bu siyasətin əsas prinsipləri aşağıdakılardır:

- İş vaxtı spirtli içkilərin qəbulu, istifadəsi, kiməsə təklif olunması, işçinin üzərində gəzdirilməsi, bu içkilərin təsiri altında olması və s. qadağan olunur. İş vaxtı dedikdə, təkcə işçilərin hər hansı fəaliyyət proseslərini həyata keçirdiyi vaxt deyil, eyni zamanda nahar və çay fasilələri, istirahət saatları da nəzərdə tutulur.
- İş vaxtı narkotik maddələrin və ya psixotrop təsirli, yuxu gətirən dərmanların istifadəsi, kiməsə təklif olunması, işçinin üzərində gəzdirilməsi, satılması, bu maddələrin təsiri altında olmaq qadağan edilir. Əgər yuxarıda qeyd edilən dərmanların istifadəsi həkim tərəfindən müalicə məqsədi ilə təyin edilmişdirsə, onda həmin işçi yalnız müalicə kursunu tam bitirdikdən sonra işə gələ bilər və müvafiq fəaliyyət proseslərini həyata keçirə bilər.

Hər bir işçi bu siyasətin prinsiplərinin pozulmasını aşkar etdikdə, dərhal öz rəhbərinə, SƏTƏMM üzrə nümayəndəyə və ya şirkətin Baş direktoruna məlumat verməlidir.

AAC" MMC –nin Rəhbər heyəti bu siyasətin bütün işçi heyətin nəzərinə çatdırılması və bütün əməkdaşlar tərəfindən onun prinsiplərinə əməl edilməsinin təmin olunmasını öz üzərilərinə götürürlər.